**Azərbaycan Respublikası Saatlı Rayon İcra Hakimiyyəti Başçısının**

**Sərəncamı**

**№ 83**

Saatlı şəhəri 04 iyul 2016-cı il

Saatlı rayon İcra Hakimiyyətində yaradılmış Apellyasiya Şurasının tərkibində dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2016-cı il tarixli Fərmanının tələblərinə uyğun olaraq rayon İcra Hakimiyyəti başçısının 09 fevral 2016-cı il tarixli 17 nömrəli sərəncamı ilə 7 nəfər tərkibdə rayon Apellyasiya Şurası yaradılaraq tərkibi formallaşdırılmışdır. Keçən müddətdə Şura üzvülərindən Aparatın Sosila-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Əsədov Ağa Ziyad oğlu iş yerini dəyişdiyindən Şuranın tərkibində yenilik olunması zərurəti yaranmışdır.

Qeyd olunanları nəzərə alaraq

qərara alıram:

1. Rayon İcra Hakimiyyətində yaradılmış Apellyasiya Şurasının tərkibi 7 nəfərdən ibarət olmaqla aşağıdakı tərkibdə təsdiq olunsun:

**Şuranın sədri:**

Salahov Rahib Əli oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial- iqtisadi inkişafın təhlili və proqnozlaşdrılması şöbəsinin müdiri

**Şuranın üzvüləri:**

Abdiyev Nurəddin Səməd oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Hüquq şöbəsinin müdiri

Cəbrayılov Elnur Rizvan oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

İsgəndərov Yusifəli İsgəndər oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatı Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar

Cəfərov Rasim Balaxan oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdrılması şöbəsinin müdir müavini

Həsənov Azər Əliağa oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi

Əzimov Famil Əzizalı oğlu - Saatlı rayon İcra Hakimiyyəti başçısının Qara Nuru kənd İƏD üzrə nümayəndəsi

2. Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri V.Allahverdiyevə tapşırılsın ki, bu sərəncamın icrasından irəli gələn məsələlərin həllini təmin etməklə aparılmış dəyişikliklər barədə Prezident yanında Apellyasiya Şurasına elektron məlumat verilməsini təmin etsin.

Saatlı rayon İcra Hakimiyyəti başçısı

səlahiyyətlərini müvəqqəti icra edən,

rayon İcra Hakimiyyətinin birinci müavini: İlham Quliyev